

# İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının

## Nəzarət mexanizmi

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE



# KONVENSIYANIN MƏQSƏDI NƏDIR?

1 fevral 2008-ci il tarixdə qüvvəyə minmiş İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyanın məqsədi insan alverinin qarşısını almaq, insan alveri qurbanlarını müdafiə etmək və səmərəli istintaq və mühakiməni təmin etməkdir. Bu Konvensiya milli və ya transmilli səviyyədə olmasından, eləcə də mütəşəkkil cinayətkarlıqla əlaqəli olub-olmamasından asılı olmayaraq insan alverinin bütün formalarına (qadın, kişi və uşaqlara), eləcə də bütün istismar formalarına şamil edilir. Konvensiyaya vətəndaş cəmiyyəti ilə tərəfdaşlığı və beynəlxalq əməkdaşlığı təşviq edən tədbirlər də daxildir.

Konvensiyanın əsas dəyəri onun insan hüquqlarını və qurbanların müdafiəsini diqqət mərkəzində saxlamasıdır. Konvensiya insan alverini insan hüquqlarının insan ləyaqətinin və toxunulmazlığının pozulması kimi müəyyən edir. Bu o deməkdir ki, milli hakimiyyət orqanları insan alverinin qarşısının alınması, insan alveri qurbanlarının müdafiəsi və insan alveri hallarının səmərəli istintaqının təmin edilməsi yönündə tədbir görmədikləri halda məsuliyyət daşıyırlar.

İnsan alveri sərhəd tanımayan bir fenomen olduğundan, Konvensiya bütün dünya ölkələri üçün vacib və açıqdır.



# KONVENSIYANIN HƏYATA KEÇIRILMƏSINƏ NECƏ NƏZARƏT EDILIR?

Konvensiya onun müddəallarının həyata keçirilməsini qiymətləndirmək üçün müstəqil monitorinq mexanizmi müəyyən etmişdir. Konvensiyanın əsas gücü hesab olunan bu monitorinq mexanizmi iki strukturdan ibarətdir: İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupu ("GRETA") və Tərəflərin (iştirakçı dövlətlərin) Komitəsi.

## GRETA nə dir?

İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupunun (GRETA) əsas vəzifəsi Konvensiyanı ratifikasiya etmiş ölkələr tərəfindən onun həyata keçirilməsinin qiymətləndirilməsidir. GRETA Konvensiyanı imzalayan ölkələrdən olan 15 müstəqil və bitərəf ekspertdən ibarətdir. Müxtəlif sahələrin nümayəndələrinin (hüquq mütəxəssisləri, hüquq-mühafizə orqanları işçiləri, psixoloqlar, həkimlər, vətəndaş cəmiyyətinin təmcilçiləri və s.) daxil olduğu bu ekspertlər Konvensiyanın əhatə etdiyi sahələrdə peşəkar təcrübələrinə əsasən seçilirlər. 4 il müddətinə seçilən GRETA üzvlərinin bir dəfə təkrar seçilmək hüququ vardır.

# GRETA monitorinq fəaliyyətini necə həyata keçirir?

GRETA-nın monitorinq fəaliyyəti dövrlərə bölünür. Hər dövrün əvvəlində GRETA Konvensiyanın monitorinq ediləcək müddəalarını və qiymətləndirməni həyata keçirmək üçün müvafiq metodları müəyyən edir.

Monitorinq işini həyata keçirərkən GRETA məlumat toplamaq üçün müxtəlif metodlardan istifadə edir. İlk növbədə, GRETA qiymətləndirmə keçirilən ölkənin müvafiq hakimiyyət orqanlarına sorğu göndərir. Sorğuya verilən cavablar GRETA tərəfindən təhlil edilir və lazım gəldikdə GRETA cavabları daha da aydınlaşdırmaq üçün əlavə məlumatlar tələb edir.

Sorğudan əlavə, GRETA qiymətləndirməni həyata keçirmək üçün müvafiq ölkələrə səfərlər təşkil edə bilər. Belə səfərlər hökumət rəsmiləri, polis əməkdaşları, prokurorlar, parlament üzvləri və digər əlaqədar dairələrlə ətraflı müzakirələr aparmaq üçün imkan yaratmış olur.

Qiymətləndirmə səfərləri GRETA-ya insan alverinin qurbanlarına yardım göstərilən yerlərə də baş çəkmək imkanı yaradır. Beləliklə, GRETA dövlət strukturları və ya qeyri-hökumət təşkilatları (QHT) tərəfindən idarə edilən insan alveri qurbanları uçun nəzərdə tutulan mərkəzlərə və ya müvəqqəti sığınacaqlara, qeyri-qanuni miqrantlar və sığınacaq istəyənlər üçün mərkəzlərə, sərhəd məntəqələrinə və ya xəstəxanalara baş çəkmək istəyə bilər. Bu səfərlər Konvensiyanın həyata keçirilməsi üçün görülən tədbirlərin səmərəliliyini yoxlamağa imkan yaradır.



# VƏTƏNDAŞ CƏMIYYƏTININ ROLU

GRETA-nın vacib informasiya mənbələrindən biri də vətəndaş cəmiyyətidir. Qiyətləndirmə səfəri müddətində GRETA insan alverinə qarşı mübarizəyə cəlb edilmiş QHT-lər və vətəndaş cəmiyyətinin digər nümayəndələri (məsələn, həmkarlar ittifaqları, vəkil assosiasiyaları, tədqiqat mərkəzləri) ilə görüşlər keçirir. GRETA öz sorğularını etibarlı informasiya mənbələrinə çıxışı olan və bu informasiyanın səhihliyini yoxlamağa qadir olan QHT-lərə və vətəndaş cəmiyyyətinin digər nümayəndələrinə ünvanlaya bilər.

# GRETA-NIN MƏRUZƏLƏRI

Ölkənin qiymətləndirilməsinə dair GRETA-nın məruzələri hər bir ölkədə insan alverinə qarşı mübarizənin aparılmasına dair vəziyyətin təhlilindən və Konvensiyanın həyata keçirilməsi üzrə tədbirlərin gücləndirilməsinə dair təkliflərdən ibarət olur. Bu məruzələr əməkdaşlıq ruhunda tərtib edilir və ölkənin bu sahədə səylərini dəstəkləmək məqsədi güdür.

GRETA qiymətləndirmə məruzələrinin layihəsini plenar sessiyalarında nəzərdən keçirir. Bundan sonra, məruzə layihəsi rəy bildirilməsi üçün müvafiq hökumətə göndərilir; GRETA yekun məruzəsini tərtib edərkən bu rəyi nəzərə alır. Yekun məruzə son şərhlər üçün müvafiq hakimiyyət orqanlarına göndərilir. GRETA-nın məruzəsi hakimiyyət orqanlarının şərhləri ilə birlikdə nəşr edilərək ictimaiyyətə təqdim olunur.

# KONVENSIYANIN TƏRƏFLƏR KOMITƏSI

Nəzarət mexanizminin ikinci strukturu Konvensiyanı ratifikasiya etmiş ölkələrin milli nümayəndələrindən ibarət Tərəflər Komitəsidir. GRETA-nın məruzələri əsasında Tərəflər Komitəsi ayrı-ayrı ölkələrə ünvanlanmış tövsiyyələr qəbul edə bilər; bu tövsiyyələrdə GRETA-nın gəldiyi nəticələrin həyata keçirilməsi ilə bağlı tədbirlər göstərilir.



# MONITORINQDƏN KONVENSIYANIN HƏYATA KEÇIRILMƏSINƏ YARDIMA DOĞRU

İnsan alverinə qarşı mübarizəyə dair Avropa Şurası Konvensiyası çərçivəsində həyata keçirilən monitorinq üç istiqamətdə faydalıdır:

- Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsini qiymətləndirir və stimullaşdırır;
- maneələrin aradan qaldırılması üçün ölkələrə fərdi məsləhətlər verir; və
- informasiya və yaxşı təcrübələrin paylaşıla biləcəyi və beynəlxalq ictimaiyyətin hər hansı yeni tendensiyalarla bağlı xəbərdar edilə biləcəyi beynəlxalq əməkdaşlıq forumu rolunu oynayır; bununla da, problemlərin qarşısını almaq və onları həll etmək üçün birgə fəaliyyətləri stimullaşdırır.

Moniorinq fəaliyyətinin nəticələri internetdə yerləşdirilmiş və insan alverinə qarşı mübarizə aparan bütün şəxslər üçün istinad mənbəyinə çevrilmişdir. Avropa Şurası həmçinin Konvensiyanın və monitorinqdən irəli gələn tövsiyyələrin icrasında hökumətləri dəstəkləyir.

THB–INF (2013)1

## Əlaqə və əlavə məlumatlar üçün:

İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının Katibliyi
(GRETA və Tərəflər Komitəsi)
Avropa Şurası / Council of Europe
F-67075 Strasbourg Cedex
Fransa / France
E-mail: Trafficking@coe.int

**www.coe.int/trafficking**

PREMS 235313 – AZE – © Council of Europe – Photo credit: Council of Europe / Shutterstock